

## SÜLEYMAN ABDULLA

### HƏ-YOX...

Baxışın mey kimi süzülür yenə,
Piyalə gözlərin, desəm, dəmmi?.. Yox!
Elə bərq vurur ki, sübh şəfəqində,
Düşüb gül üzünə gecə nəmmi?.. Yox!

Susub deyə bilir sözünü lallar,
Bəs bu nə bəladır, - düşdüyüm hallar.
Mənim ürəyimə qapqara xallar,
Sənin ürəyinə düşən qəmmi?.. Yox!

Gül adın nə idi, - ümid kəsənmi,
Üzünü görəndə qəlbim əsənmi,
Sən mənim dərdimdən divanəsənmi,
Mən sənin dərdindən ölürəmmi?.. Yox!

### HAVA VƏ ADAM

Yaman buludluydu hava,
nəm çəkmişdi adamlar,
Qanı qara olanlar öfkəsini udurdu.
Bilinmirdi qarnının nə bəla xırrası var,
Hirsi cövlan adamla havanınkı tuturdu...

Xırda, sısqa çisəklər böyüyüb oldu damla
Asılıb inci kimi yarpaqlardan damcılar.
Külək qalxdı ehmalca ağaclar gözü dolu
səpələnir üstünə budaqlardan damcılar.

Süst düşüb qalan cığır batdı gömgöy dumana
Çəndə azdı özünü yol dağa çəkilməyə.
Yorğun olan adamı anlamaq çətin deyil,
Tətik kimi hazırdı ayağa çəkilməyə.

### YAŞAMAQ

Bərbəzəkdə itib-batan, göstər özünü mənə,
Dərd deyilmi ömrü boyu saxta süsdə yaşamaq?
Qara gözü alabəzək, bəyaz üzü al-əlvan,
Üzü alma, dili badam, ağzı püstə yaşamaq.

Baxan olmaz qədir günü qorxu dolu hədənə,
Bənzəyərsən suyu sovuq, damı uçuq mədənə.
Nə özünə güvənənsən, nə gücə, nə bədənə,
Uca qamət yaramırsa boyubəstə yaşamaq.

Kimdi başa çıxarasan min oyunlu bir səyi,
Möcüzədir həyat cəhdi, can verməkdir sirr səyi.
Gözəlliyi seyr etməkdi vurub da yandirsəyi,
Uzanıb ölmək yaxşıdır, ayaq üstə yaşamaq.

### ÜMİDLƏRİ SU

Daha arzulamıram Tanrıdan göz dolu nur
Bir ümman ayrılıq var ovuc içi adaya.
Bizim saf niyyətimiz hər vaxt qovğalıq olur,
İndi kimi salacaq qasırğalar qadaya.

Bu yayın ilk qayğısı gəldi tufanla qara,
Bəladan qurtulmaqdı adamların tək dərdi.
Ümidləri su olan düşməz burulğanlara,
Dostum, işə yaramır sinəyə çəkmək dərdi.

Sübh çağı nəfəsimdir qarışan qara yelə
Erkən çıxdığım yola tez çatmıram, bilirsən.
Fikir burulğanında batıb çıxıram elə,
Mən sənə qovuşmağa can atmıram, bilirsən.

## DEYILMI

Göz görəsi atılmaqdı özündən,
Bu dərənin dərinliyi, deyilmi?
Qəfil keçdi canımdan bir üşütmə,
Yamacların sərinliyi deyilmi?

Cisələyir narın-narın göy üzü,
Bir çətirlik canı varmış yağışın.
Ürəyimdən bir ah qopdu ötəri,
Sal qayadan sürüşəndə baxışın.

Gözlərimi çəkən yolu tutub çən
Gəl, ovcumun ortasından sal cığır.
Qopar əlim göydən, ayağım yerdən,
Birdən-birə qırılanda lal cığır.

Biçənəklər yırğalanar dəniztək,
Hava soyuq, cığır islaq, su sərin.
Bir ömürdü yol gedirəm heçliyə,
Kürəyimdən təri çıxır illərin.

## YOXSA NƏ MƏNASI

Elə uduzmaq var uduşdan üstün,
Qara libas geyib çıxmaq ağ günə.
Dostum, yenilginin ən gözəlidir,
Qalib gələ bilmək özü özünə.

Qələbə çalmağa yuxunda ad çək,
Bir adı uğurdur oyun udmağın...
Adam öz nəfsiylə güləşsin gərək,
Yoxsa nə mənası qurşaq tutmağın...

Çoxunun özünə düşməyir adı
Kim torpaq adamdır, kim yer, kim Vətən.
Təki sən udasan torpağın artsın,
Mən sənə uduzmaq istədim, Vətən...

## HANSI DƏNİZDİR

Torpaqdan üzülən əlin bilirmi,
Batmağa seçdiyin hansı dənizdir?
Düşüb boğuluram havasızlığa
Sualtı keçdiyin hansı dənizdir?

Təkcə dəryalarda olmur tufanlar,
Qaldımı adıma çatım əbədi.
Mənim sular ilə nə işim axı,
Mən torpaq istərəm batım əbədi.

Daha ürəyim də istəməz düzü,
Adı "fərəh" olan bir dağa dönmək.
İndi quraq keçir hava, xoş olar,
Üzü sulu ikən torpağa dönmək...

## HAQQIN ADINDAN

Birinə mahnıdır, beşinə mahna*,
Olmur oxumaq şur haqqın adından.
Nə var danışmağa boşboğaz üçün,
Küyü bol, səsi gur haqqın adından.

Hər gün daha qaçır həyatın dadı,
Eyni dərddə batır doğması, yadı.
Müqəddəs deyilən heç nə qalmadı,
Hamı sələm tutur haqqın adından.

Surda avazıyan bulud ağ deyil,
Çoxdu hökmü-zaman indi sağ deyil.
Kimə kim deyər ki, oyuncaq deyil,
Bir az aralı dur haqqın adından.
**Mahna - bəhanə*

## OLMUŞ

Mən sənə qürbətdən gətirdim misal,
Gedəndə baxdım ki, məsələ olmuş.
Kimsə acıq verdi az olur sənə,
Az deyə bilmərəm, çox hələ olmuş.

Nə dua qurtarmaz, nə nəzir piri
Daha haqq dediyin yeyilir diri.
Var cüyür cığırı, var şir ləpiri,
Bulağa tələsən iz tələ olmuş.

Ayrılıq adında söz hələlikdir,
Çəkə biləcəyin yük şələlikdir.
Uzaqlar dediyin vəlvələlikdir,
Qəfil ayılırsan zəlzələ olmuş.

## ƏL ŞƏKLİ ÇƏKƏN

Sağ olsun, ürək çatında
Boş ümid əkib göndərən.
Yamamağa, közəməyə,
İynə yox, tək ip göndərən...

Deyilmiş dişarı dindən,
İnsafı çox imiş kindən...
Ağrıların üzərindən,
Quş kimi səkib göndərən.

Qalan ürəyimdə xaldı,
Yazan bəxti qara saldı...
Əsrin o üzündə qaldı
Əl şəkli çəkib göndərən.
19-20.08.2021, Gədəbəy

## YOXDUR

İnancım ucaTanrıdır,
Ondan başqa ulum yoxdur.
Ucalıq deyilənim var,
Zirvəsi ən hulum yoxdur.

Saraydı tikdiyim kümə,
Nə şənbə bildim, nə cümə...
Mən bir ağayam özümə,
Məndən qeyri qulum yoxdur.

Almadım haqdan kam bircə
Təkəm, vahidəm, tam, bircə..
Ən varlı adamam, bircə,
O əl çirki pulum yoxdur.

## SÖZ

Sözdən çıxmağa tapsa yol,
Çıxar çox sözdən az adam.
Söz yaradar, söz öldürər,
Sözdən söz çıxarmaz adam.

Kimə anddır, kimə aman,
Yarası olur çox yaman...
Sözündən qaçan heç zaman
Çox uzağa varmaz, adam.

Söz dirənəndə olur sərt,
Şirini qənd, acısı dərd...
Çoxdan unudulub sözlə şərt,
Sözü bir yerə yaz, adam.

***11.08.2021***

## YOLA GETMƏYƏN YOL

Daha yola getmir bu küçə sənlə,
Gah səki narahat, gah yol dar olur.
Bir gün istəyirsən biri rast gələ,
Amma, zəhlən getmiş adamlar olur.

Qalan ömür yarı, gedən yol yarı,
Düşüb qaranlığa qalmaq tək çətin.
Qırar ayağını səki daşları,
Batıb xəyallara yürümək çətin.

Diksinir yanında bir maşın fiti,
Cüt xəttə təkərlər cüt şırım açır.
Gedişin astagəl, gəlişin iti,
Qolundan saatın kəməri qaçır.

Sıxan ürəyini işıq xofuydu,
Ksenon lampaya əcəl kimi bax.
Yanından sivişən nə bəla duydu,
Bundan sonra qalır borca yaşamaq.

Bir görüş can atır çıxsın sona kür,
Nə vaxt bəs eyləmir, nə vədə sənə.
Ürəyin böyüyür, gözün böyüyür,
Sən yola sığmırsan, küçə də sənə...

***11.08.2021***

## YAŞAMAQ HAQQI

Xeyri yoxdu bir ömrü yüz bölməyin,
Varsa aman yaşamaqdı doğrusu.
Bundan sonra dadı qaçdı ölməyin,
Yaxşı-yaman yaşamaqdı doğrusu.

Dilək varsa can atılar çatmağa,
Nə var axı torpaq altda yatmağa?!
Neçə-neçə dərya keçdik batmağa,
Axsa saman yaşamaqdı doğrusu.

...Amma xoşdur ağ bəxtimiz yey olsa
Bu dünyanı unutduran mey olsa...
Ağızda dil inildəyən ney olsa,
Ya da kaman... yaşamaqdı doğrusu.

Verən verib qismət busa, gec əldən,
Nə umursan bir oyunbaz dəcəldən?
Kim yarıyıb vaxtsız gələn əcəldən,
Varsa zaman yaşamaqdı doğrusu.

***10.08.2021***

## ALSAN BU ŞEİRİ

Dəniz dalğası al, dağ çayı götür,
Dalsan, bu şeiri mənim əlimdən...
Bir gün Araz olar, o biri gün Kür,
Alsan bi şeiri mənim əlimdən.

Qəflətən ağlıma sözü linç gələr,
Üsul qərib gələr, çəm ilginc gələr.
Gecə rahat keçər, sabah dinc gələr,
Lalsan, bu şeiri mənim əlimdən?!

Mürəkkəb qabıdır... və qələm sadə,
Başı dumanlıdır mey dolu badə...
Nə oğru deyərəm, nə haramzadə,
Çalsan bu şeiri mənim əlimdən.

Ümiddi ovcumdan süzülən qumtək,
İllərdir ömrümü çevirdi şumtək...
Sərçə dimdiyindən torpağa tumtək,
Salsan bu şeiri mənim əlimdən.

## SARI ŞEİR

İçində bir payız fəsli,
Əsər ürəyin sarıya.
Bürünər üst-baş, yan-yörə,
Bəzənər əyin sarıya.

Rəngi dərddir sarı simin,
Yeri deyil yerdə himin.
Qalmadı yaşıla kimin,
Qalmadı nəyin sarıya?

Gəlməz zamanla yolun dəng,
Can yorğun olar, nəfəs təng...
Yağar üstünə göydən rəng
Batar köynəyin sarıya.

## AĞ SARI

Yaxın yola bir uzaq var,
Qürub yerində ağ sarı.
Sabah yarpaq oyanmaq var,
Axşam xəzəl yağmaq sarı.

Yanıb tökülür çöl-bayır,
Piltə-piltə, cayır-cayır...
Dərələr su sayıqlayır,
Ağzını açıb dağ sarı.

Kim var həyatdan yarıya,
Su çatmaz aydan arıya.
Dünya bürünər sarıya,
Xəzan yol alar bağ sarı.

## ÇIXIŞ

Daha cəbhələrə uzaqdı səsim,
Hirsimi-hikkəmi sözdən çıxıram.
Ürək demirəm ki, olmur sevgisiz,
Bir zərrə nur kimi gözdən çıxıram.

Əvvəl sona çatar, son olmayanda,
Dönər bütün yollar özünə artıq.
Tərəzi bir yanda, çarmıx bir yanda,
Tutub dağ çəkərlər gözünə artıq.

Tələsər bir az da çatmağa vədə,
Canda tutarmı var sıxılmaq üçün?
Hər kəs öz adından enir, mənə də,
Qalar bir ucalıq yıxılmaq üçün.

Bir cüt göz sozalar kimsəsiz tində,
Hönkürüb ağlamaq gələr arına.
Kimsə kürəkləyər sükutü, sonra
Torpaq səsi düşər qulaqlarına.

## YERLİ YERİNDƏ

Gurdu vaxtın sel-su kimi
Üstümdən adlayan yeri.
Torpağa doğma canımın,
Zamana yadlayan yeri.

Olmazı varmış "ol"ların,
Düyün düşdümü qolların?
Gözümə durdu yolların
Dizimi qatlayan yeri.

Ürəyim daha dağ tutmaz,
Canımı ağrı sağ tutmaz.
Elə düşüb qaynaq tutmaz,
Bağrımın çatlayan yeri.

Tanrı da fikrə dalıbmış,
Məni gözündən salıbmış.
Bu külün hələ qalıbmış
Qəlbimi odlayan yeri...

## HAQQI VAR

Təkcə barışmaqla düzəlməz ara,
Kiminsə kimdənsə küsmək haqqı var.
Kədərdi sevincin tərsi, hər kəsin,
Üzülmək haqqı var, üzmək haqqı var.

Daha çöp də deyil gözümdə tir vaxt,
Keçdi möcüzə vaxt, ötüşdü sirr vaxt.
Olsun ki, kimisə incitdim bir vaxt,
İndi məni kinlə süzmək haqqı var.

Əvvəli kor imiş sonu görənin,
Çıxdı axırına bir yol hərənin.
Bir gün qərənfildən çələng hörənin
Bir gün qəbir üstə düzmək haqqı var.